**Bakı Dövlət Universiteti Tarix fakültəsi Asiya və Afrika ölkələri tarixi kafedrasının baş müəllimi İ.C.ƏMİRLİ**

**israilamirov04@gmail.com.**

# Novruz türk xalqlarının milli bayramıdır

Azərbaycan xalqının tarixi bayramları, dini və milli bayramlara bölünür. Bu bayramlar xüsusiyyətlərinə görə İslamdan əvvəl və İslam dinin yayılmasından sonrakı bayramlara bölmək olar. Demək olar ki, Azərbaycan xalqının bayramlarının əksəriyyəti İslam dinindən əvvəl yaranmış bayramlardır. Bu bayramlar içərisində Qurbanlıq, Orucluq, Novruz bayramlarını göstərmək olar. Bu bayramların hər üçü demək olar ki, İslam dinindən əvvəl yaranıb. Lakin, sonradan İslam dinini qəbul edərkən bu bayramlar da unudulmamış və qeyd olunmuşdur.

Milli bayramlar içərisində Novruz bayramını göstərmək olar. Dini bayramlara bölünən bayramlar içərisində Qurbanlıq və Orucluq bayramlarını göstərmək olar.

Qurbanlıq bayramı İslam dinindən əvvəl yaranmış, İbrahim peyğəmbərin oğlu İsmayılı qurban verməsi ilə bağlı meydana gəlmişdir. Belə ki, İbrahim peyğəmbərin insanlıq qarşısında xidmətləri ondan ibarət olmuşdur ki, bu dövrə qədər insanlar gənc insanları allah yolunda qurban kəsirdilər. İbrahim peyğəmbərin oğlu İsmayılın yerinə qoç qurbanı kəsməsindən sonra bu adət aradan qalxmış insanlar heyvanları qurban verməyə başlamışlar. Bu bayramın insanlar üçün önəmi ondan ibarətdir ki, insanlar daha dəyərlidir. Bütün dünya xalqlarının arasında geniş yayılmış insan qurban vermə adəti bu dövrdən başlayaraq zamanla aradan qalxmışdır.

Orucluq bayramı isə insanların allah yolunda dözümlüyünü və ac qalaraq ibadətlərinin yerinə yetirilməsinin təzahürüdür. Bu bayram digər dinlərdə də oxşar şəkildə əks olunmuşdur.

Türk xalqlarının milli bayramı isə Novruz bayramıdır. Bir çox insanlar bu bayramın adının Novruz-yeni gün olması ilə əlaqədar bu bayramı fars bayramı kimi qələmə vermişlər. Lakin onu qeyd etmək lazımdır ki, Novruz bayramı türk xalqlarının dini görüşlərindən yaranan və meydana çıxan bir bayramdır. Bəzən Novruz bayramını türk xalqlarının yaratdığı digər bir din Zərdüştlüklə bağlayanlar da var. Lakin onu qeyd etmək lazımdır ki, türk xalqları bu dini Zərdüştlükdən əvvəl mövcud olan animizm dini görüşlərindən irəli gələrək qeyd etmişlər.

Türk xalqları Novruz bayramında nəyi qeyd edirlər. Yaxşı ki, su , torpaq, hava, od var. Bu görüşlər animistik düşüncə tərzindən irəli gələn görüşlərdir və kainatın, o cümlədən canlı varlığın var olma səbəbidir.

Türk insanları kainatın və canlı aləmin var olma səbəbi olan bu dört ünsürü, çərşənbələr şəklində qeyd edirlər. Əgər türk xalqlarının qeyd etdiyi bu dörd ünsürün biri olmasa canlı aləm məhv olar.

Digər tərəfdən türk xalqlarının qeyd etdiyi bu bayram müsəlmanların yaşadıqları müəyyən xalqlara da təsir etmiş əfqanlar, taciklər, farslar və s xalqlarda türk xalqları ilə bir yerdə bu bayramı qeyd emişlər.

Bayramın digər milli xüsusiyyəti ondadır ki, bu bayramla əkinçi və heyvandar olan türk xalqları Bahar bayramının gəişini qeyd edirlər. Bununla əlaqədar yazın gəlişini simvolik şəkildə səməni yetişdirməklə əks etdirirlər. Bu həm də türk xalqlarında yeni ilin gəlişi bayramıdır.

Yeni il və Həmrəylik bayramları 31 dekabr tarixində qeyd edilsədə türk xalqları təbiətin oyanışını bu bayramla qeyd edirlər. Xalqımız bu bayramı

çərşənbələrdə ocaq qalayaraq qışın çıxmasını və ehtiyyada olan yanacaqlarını yandıraraq qeyd edirlər. Ona görə də bəzən bu bayramı atəşpərəstliklə əlaqələndirirlər. Ancaq insanlar bununla qışın çıxmasını və baharın gəlişini qeyd edirlər.

Türk xalqlarına məxsus xalqlar dar gündə və bayramlarda xəbərləşməni ocaq vasitəsilə qeyd edirdilər. Bu barədə məlumatlar Dədə Qorqud dastanında öz əksini tapmışdır. Ona görə də türk xalqlarında, bayramlarda ocaq qalamaq müqəddəs hesab olunmuş, insanlar ocağı müqəddəs saymışlar.